Müslüm Mahir Hikmət... bu ad əlli ildən çoxdur ki, ədəbi mühitdə dolaşır. Dəyərli poetik kitabları elmi-kütləvi əsərləri, ensklopedik məlumat yaradıcılığını ehtiva edən nəşr nümunələri ilə müasirlərinin təsəvvüründə filosof-şair sosioloji tədqiqatlar aparan alim obrazını yaratmışdır.

Hələ 70-ci illərdən üzü bəri müxtəlif ədəbi orqanlarda dəyərli poetik örnəkləri ilə çıxış etməsi ustad sənətkarların da diqqətini cəlb etmişdir. Xalq şairi Nəriman Həsənzadə onun haqqında hələ 70-ci illərdə deyirdi ki: "Mən səni gələcəyin gözəl sənətkarı kimi görürəm".

Hər bir istedadlı gənc üçün yaradıcılıq yolu həmişə problemli olub. Şübhəsiz, bu cəhətdən Müslüm Mahir Hikmətin də tale yolu istisna deyil. Görünür elə mütəlif maneələri dəf etməyin çətinliyi ucbatından onun kitabları 90-cı illərdən nəşr olunmağa başlayıb. Və tezliklə, ədəbi tənqidin, bir sözlə, ədəbi mühitin diqqətini cəlb edən kitabları onu həqiqətən filosof şair kimi tanıdıb.

Xalq şairi Qabil onun dördlüklərini, rübailərini diqqətlə izləyir və tənqidi fikirlərini, tövsiyyələrini də əsirgəmirdi.

Müslüm Mahir Hikmətin yaradıcılığı janr müxtəlifliyi ilə seçilsə də, dördlüklər onun yaradıcılığında xüsusi yer tutur, özü də dördlük-rübai yaradıcılığından məmnunluq duyduğunu gizlətmir:

# FİLOSOF ŞAİRİN DÜŞÜNCƏ ALƏMİ...

Beş min rübaiylə abidə qurdum,
Hər misra ruhuna bir naxış vurdum.
Elə bir qüdrətlə işləndi hər söz,
Könüllər fəth edər mənim söz ordum.

Məlumdur ki, dördlük yaradıcılığı şairdən xüsusi məharət tələb edir. Dörd misranın içərisində elə bir aləm yaratmalısan ki, oxucu sözün bütövlüyündən zövq ala bilsin. Sanki təbiətin əli ilə yaradılmış mükəmməl bir gözəllik löhvəsini görsün.

Müslüm Mahir poeziyasının dili ilə oxucusuna doğmalıqla müraciət edir. Ona sanki həyatın sirlərini anladır. Elə bil ki, ona təkcə sirrləri anlatmır, həm də bu sirrlərin yaranmasına səbəb olan həyat təsirlərini də göstərir. Bir sözlə, oxucusunu mənəvi cəhətdən silahlandırır:

Ayın nuru kimi həyatın olsun,
Günün işığı tək qoy bəxtin olsun.
Güllü-gülşənlərdə keçsin həyatın,
Səadət əbədi sovqatın olsun.

Müslüm Mahir Hikmətin yaradıcılığında insan bütöv bəşəri təmsil edir. Nə qədər onun daxili, fərdi hisslərini, həyəcanlarını ifadə edirsə, bir o qədər də ictimai aləmin mənəvi mühitindəki çırpınmaları göstərir. Özü bunu belə ifadə edir: "Mən fərdi deyil, ictimai varlığın eqosudur" . Onun belə ümumiləşdirici tezisləri yaradıcılığı boyu fəlsəfi ümumiləşdirmə ilə yazılmış dördlüklərinin mahiyyətini ifadə edir. Məsələn deyir ki, "öndə getmək, ictimai öhdəlik götürməkdir". Nə qədər dəqiq ifadə olunub. Yəni lider əslində cəmiyyətin taleyinə görə elə cəmiyyət qarşısında məsuliyyət daşıyır. Əgər bu məsuliyyəti daşıya bilmirsənsə, əgər cavabdehlik missiyasını dərk etmirsənsə, demək lider də ola bilməzsən. Lider ən gərgin məqamlarda öndədir və ilk zərbələri qarşılayandır, bunu bacarandır. Amma cəmiyyətdə o vaxt harmoniya pozulur ki, öndə gedən öz məsuliyyətini axıracan daşıya bilmir. Və yaxud da bu məsuliyyəti dərk etməyən özünü lider kimi görmək istəyir. Belələrinə Müslüm Mahir Hikmət ironiya ilə damğa vurur: "İndi fələk də başını itirib, növbə yarada bilmir. Onun növbə yaratmaq öhdəliyi pozulub. Heç ondan soruşmadan qabağa düşənlərin sayı çoxalıb". Sanki dövrümüzün təbiətini göstərən bu fikirlərin arxasında böyük sözün mahiyyətini bilən müəllifin özü dayanır. Müslüm Mahirin fəlsəfi tezisləri ümumdünya fikrinin inkişafı ilə bağlıdır. Yeni bəşəri düşüncə zamanının qənaəti kimi filosof şairin bu tezisi də, daha doğrusu, tezisləri də oxucu üçün maraqlı olacağını zənn etdiyimizdən təqdim edirik: "Mən məndən sonra gələnlərin önündəyəm, öndə getmək üçün məhrumiyyət yox, qabiliyyət yaratmaq lazımdır. İndi artıq "mən" xüsusilikdən çıxıb ümumi ictimai varlığa çevrilmişdir". Bu bir neçə cümlə əslində bütöv bir fəlsəfi traktatın sıxılmış variantıdır. Və heç şübhəsiz Müslüm Mahirin ədəbi-fəlsəfi baxışlarını ifadə edir. Görün necə gözəl ifadə edib.Daha bir tezis: "Sən yoxluğa çəkilmisən, lakin varlığını yaddan çıxarmısan".

Müslüm Mahir Hikmət adlı sənətkarımızın, filosof şairimizin 70 yaşı tamam olur. Zaman baxımından az olmasa da, çox da ömür deyil. Ən azı ona görə ki, indi filosof şairin düşüncələr aləmi bütün parlaqlığı ilə üzə çıxan kamillik çağlarını əks etdirir.

Söz öz sahibinin ünvanıdır. Söz dəyərlidirsə, tez-gec sahibinin də ünvanını göstərmək gücündə olacaq.

*Əli Rza XƏLƏFLİ*
*26.04.2021*

Kredo 2021.- 28 aprel.- S.12.